*Samirə Əliyeva. XIX əsr Şirvan ədəbi mühitində nəzirəçilik ənənələri//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.221-223.* https://doi.org/10.59849/mbcatr.2023.221

**Orcid: 0000-0003-3710-2812**

**Samirə Əliyeva**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
samira-1971@yandex.com

## XIX ƏSR ŞİRVAN ƏDƏBİ MÜHİTİNDƏ NƏZİRƏÇİLİK ƏNƏNƏLƏRİ

**Xülasə**

Məqalədə XIX əsr Şirvan ədəbi mühitindən danışılır. "Beytüs-səfa" ədəbi məclisin yaranması və üzvləri haqqında məlumat verilir. Bu məclisdəki ədəbi-bədii mühit və oradakı söhbətlər haqqında məlumat verilir. Bu məclisdə ədəbiyyat, incəsənət, fəlsəfi fikirlərə aid söhbətlərin aparılması izah edilir. Daha sonra XIX əsr Şirvan ədəbi mühitinin yetişdirdiyi görkəmli şairimiz Seyid Əzim Şirvaninin həyat və yaradıcılığına toxunulur. Onun klassiklərimizə yazdığı şeirlərdən söhbət açılır. Dahi şairimiz Məhəmməd Füzulinin ədəbi irsinin davamçısı olduğu vurğulanır. Məqalədə, həmçinin XIX əsr Şirvan ədəbiyyatının yetişdirdiyi digər şairlərin yaradıcılığından danışılır, Molla ağa Bixudun poeziyasından, Məhəmməd Füzuliyə yazdığı nəzirələr haqqında məlumat verilir və şeirlərindən nümunələr göstərilir.

**Açar sözlər:** Şirvan, Şamaxı, ədəbi mühit, nəzirə, şeir, Məhəmməd Füzuli, Seyid Əzim Şirvani, qəzəl, ədəbi məclis

**Samira Aliyeva**

## THE TRADİTİONS OF NAZİRİSM İN SHİRVAN LİTERARY ENVİRONMENT OF THE 19TH CENTURY

**Abstract**

The article talks about the literary environment of Shirvan in the 19th century. Information is provided about the establishment and members of the "Beytus-Safa" literary assembly. Information is provided about the literary and artistic environment and the conversations there. In this meeting, it is explained how to conduct conversations related to literature, art, and philosophical ideas. Later, the life and creativity of our outstanding poet Seyyid Azim Shirvani, who was brought up by the literary environment of Shirvan in the 19th century, is touched upon. We talk about the poems he wrote to our classics. It is emphasized that he is the successor of the literary heritage of our genius poet Muhammad Fuzuli. The article also talks about the works of other poets produced by Shirvan literature of the 19th century, provides information about the poetry of Molla Agha Bikhud, the vows he wrote to Muhammad Fuzuli, and shows examples of his poems.

**Key words:** Shirvan, Shamaki, the literary environment, vow, poem, Mohammad Fuzuli, Seyyed Azim Shirvani, gazal, literary meeting

Şamaxının Azərbaycan mədəniyyətinin inkişafında, ədəbiyyatımız zənginləşməsində xüsusi rolu vardır. Bu, əsasən Şamaxının erkən şəhər kimi formalaşması, min ildən artıq bir müddət ərzində qədim Şirvanşahlar dövlətinin paytaxtı olması, bir sıra xarici ölkələrlə diplomatik, ticari, mədəni əlaqələr qurması ilə bağlıdır. "Beytüs-səfa" ədəbi məclisi XIX əsrin 60-cı illərində Şamaxıda şair Məhəmməd Səfanın evində yaradılmışdır, məclisin adının mənası belədir: Səfanın evi (ərəbcədən tərcümədə). Molla Mahmud Zuyinin yazdığına görə məclis Mirzə Nəsrullah Şirvaninin (1834-1878) təklifi ilə "Beytüs-səfa" ("Səfa evi") adlandırılıb. Bir çox mütəxəssislər də həmin yozumu Səfanın evi formasında qəbul edib, məclisin ən gənc üzvü Məhəmməd Səfanın adı ilə bağlamağa çalışıblar. Bu fakt o qədər də ağlabatan deyil, çünki o illərdə Məhəmməd Səfanın cəmi 16 yaşı vardı və o qədər də imkanlı olmayan bir ailədən olan gənc şairin o qədər məclis üzvlərini qəbul etməyə nə şəraiti, nə də imkanı olardı. Fikrimizcə, "Beytüs-səfa" elə "Səfa evi" kimi qəbul edilməlidir. Seyid Əzim Şirvani, Molla Ağa Bixud, Ağababa Zühuri, Qafar Rağib, Ələkbər Qafil, Molla Mahmud Zuyi, Mirzə Məhəmməd Həsən, və b. şairlər məclisin fəal üzvləri idilər. Məclisə Seyid

Əzim Şirvani və Molla ağa Bixud başçılıq edirdilər. "Beytüs-səfa" ədəbi məclisi Şuşadakı "Məclisi-üns", "Məclisi-fəramuşan", Bakıdakı "Məcməüş-şüəra" ilə sıx əlaqə saxlayırdılar. Bu məclisdə ədəbiyyat, incəsənət, fəlşəfi fikirlərə aid söhbətlər aparılır, klassiklərin əsərləri mütaliə olunur, onların məşhur şeirlərinə nəzirələr yazılırdı, yeni yazılan qəzəllər dövrünün xanəndələri tərəfindən oxunaraq, xalq arasında yayılırdı. Təqribən 1892-ci ilə qədər fəaliyyət göstərmişdir.

XIX əsr Şirvan ədəbi mühiti dedikdə ilk öncə Seyid Əzim Şirvani gözlər önünə gəlir və Seyid Əzim Şirvani dedikdə onun klassiklərimizə, dahi şairimiz Məhəmməd Füzuliyə yazdığı nəzirələr xəyalımızda canlanır. Seyid Əzim Şirvani yaradıcılığı yeni formalara, novatorluğa meyl etsə də, öz tarixi köklərinə sıx bağlı idi. Seyid Əzim Şirvani əlahiddə istedad və qabiliyyəti ilə yanaşı, savadı və dünyagörüşü ilə də fərqlənirdi. Şairin yaradıcılığına, lirikasına dahi şairimiz Füzulinin çox böyük təsiri olmuşdur. Belə ki, Seyid Əzim Şirvani Məhəmməd Füzulidən bir çox tərcümələr etmiş, ona xeyli sayda nəzirələr yazmış, bir qəzələni təxmis etmişdir.

Dahi şairimiz Füzuli ədəbi məktəbinin qüdrətli davamçısı olan Seyid Əzimin lirikasında başlıca yeri məhəbbət, eşq mövzularında yazmış olduğu lirik şeirlər – qəzəllər tutmaqdadır. Şairin bu qəbildən olan şeirlərində həqiqi, saf, ülvi məhəbbət, sevgi tərənnüm edilir. Klassiklərimiz məhəbbəti insanı ucaldan, mənəvi cəhətdən saflaşdıran, aliləşdirən kamil bir hiss kimi dəyərləndirirlər. Şair klassik poeziya üçün xarakterik olan bədii ifadə vasitələrindən istedadla bəhrələnərək lirik qəhrəmanın daxili aləmini, hiss və düşüncülərini dərinliyi ilə əks etdirməyə nail olur.

Seyid Əzim Şirvaninin Füzuli ədəbi məktəbi ilə əlaqəsinin geniş ictimai-bədii məzmun daşımasının isbata ehtiyacı yoxdur, Füzulinin şairin yaradıclığına təsiri məhəbbət lirikasında daha çox nəzərə çarpır. Belə şeirlərində adətən, Seyid Əzim dahi sələfini təkrar və təqdir edir. Lakin bir çox hallarda şair irəli sürülən ideya istiqamətini daha da inkişaf etdirərək, yeni bir əsər yaratmağı bacarır. Seyid Əzimin "Gərçi məndən sərkəşlin o sərvi-sərbülənd" qəzəli Füzulinin

*Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,*
*Nalə tərkin qılmazam, neytək kəsilsəm bənd-bənd.*

beyti ilə başlayan qəzəlinin təsirilə qələmə alınıb.

*Olmuşam öylə nəhf ol muşləb eşqində kim,*
*Zəfdən çıxmaz nəfəs, neytək kəsilsəm bənd-bənd.*

XIX əsrin II yarısında fəaliyyət göstərən şeir məclislərində – ədəbi məclislərdə toplaşan sənətkarların heç biri Füzuli sənətinin sehrindən, ecazkar sənətin demək olar ki, füsunkar təsir dairəsindən kənarda qala bilməmişlər. Təbii ki bunu anlamaq, başa düşmək mümkündür: ona görə ki, Füzuli qəzəli "lirikanın ən yüksək zirvəsi"dir. (Paşayev, 2004: 25). Nəinki XIX əsrdə, hətta öz dövründə belə, yetişməkdə olan şairlər ordusunun formalaşmasında onun yaradıclığının təsiri əvəzsizdir. Bir sözlə, özündən sonrakı Azərbaycan şeirinin əsas ideya-bədii istiqamətini Füzulinin sənəti yönləndirmişdir. Onun şeirinin məşhurlaşmasında və ardıcıllarının sayının artmasında, şübhəsiz ki, xələflərinin XIX əsrin ortalarından başlayaraq tərtib edilən kitab və müntəxabatlar da xeyli dərəcə də rola malik olmuşdur. Seyid Əzim Şirvaninin Füzuli ədəbi məktəbi ilə əlaqəsinin geniş ictimai-bədii məzmun daşıması danılmazdır. Ancaq bununla belə, Füzulinin Seyid Əzim Şirvani yaradıcılığına təsir etməsi məhəbbət lirikasında daha qabarıq şəkildə özünü göstərir. Adətən bu tip əsərlərdə Seyid Əzim görkəmli sələfini təkrarlayır və demək olar ki təqlid edir. Ancaq bəzi hallarda şair irəli sürülən ideyalarını, fikirlərini daha da inkişaf etdirməklə yanaşı, özünəməxsus şeir yaratmağı bacarır.

Bəzən Füzulinin hər hansı bir əsərində tərənnüm edilən motivləri Seyid Əzim dəyişərək başqa bir janrlı əsərində təqdim edir: "Guş qıl..." müxəmməsi kimi. Seyid Əziz Şirvaninin tədqiqatçısı S.Hüseynov yazır ki, şairin "Guş qıl...." müxəmməsi dahi sələfi Füzulidən təsirlənərək nəzmə almışdır. Tədqiqatçı qeyd edir ki, Məhəmməd Füzulinin "Həft cam" poemasında irəli sürdüyü məsələləri Seyid Əzim yetmiş misralıq müxəmməsdə yığcam şəkildə verməyə çalışmışdır. Əslində də "Həft cam"da gördüyümüz musiqi alətlərinə (dəf, ney, ud, tar, qanun, sitar) rast gəlirik. Dahi şairimizin müxtəlif musiqi alətlərilə qurulan məclislərdə gəldiyi nəticələri Seyid Əzim adı çəkilən bir müxəmməsdə ümumiləşdirmiş, yığcam şəkildə oxucuya çatdırmışdır. Müxəmməsi oxuduqda "Həft cam" poemasının "Guş qıl..." müxəmməsinə təsiri açıq-aydın sezilməkdədir. Hər iki əsəri müqayisə etdikdə Məhəmməd Füzulinin də, Seyid Əzim Şirvaninin də sözü gedən mənzumələrdə sufi dünyagörüşlərinin əks olunduğun şahidi olursan.

Yeri gəlmişkən, Məhəmməd Füzulinin "Könül, səccadəyə basma ayaq, təsbihə əl vurma" misrası ilə başlayan qəzəlinə Seyid Əzimin "Könül, ta var əlində cami-mey, səbhəşümar olma,

Riyai xəlqdir, billah, namaz əhilə yar olma." mətləli qəzəli ən məşhur nəzirəsi hesab edilir.

Seyid Əzimin müasirlərindən olan Molla ağa Hacı Molla Tağı oğlu "Bixud" təxəllüslü şair də 1830-cu ildə Şamaxıda anadan olmuşdur. Seyid Əzim Şirvani Şamaxıda olmayanda "Beytüs-səfa" ədəbi məclisinə rəhbərlik edirmiş. Ruhani ailəsində anadan olan şair ərəb və fars dillərini də mükəmməl bilmiş, bir müddət mollalıq etmiş, sonra ticarətlə məşğul olmuşdur. Klassik üslubda əsərlər yazan şairin "Divan"ı bu gün əlimizdə olmasa da Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda şeirləri saxlanmaqdadır. (Qəniyev, 2010: 45). Onun da xeyli sayda əsəri klassiklərimizə nəzirə olaraq yazılmışdır. M.Füzulinin "Olmaz" rədfili qəzəlinə nəzirə yazanlar arasında o da yer almaqdadır. Füzuli deyir:

*Təriqi-fərq tutsam, təb tabe, nəfs ram olmaz,*
*Qına qılsam tələb, əsbabi-cəmiyyət tamam olmaz.*
*Bixud isə yazırdı:*
*Riyazətsiz, könül, bu nəfs bir tövsəndi, ram olmaz,*
*Buna cövlangəh ərsə-ərz ola, seyri tamam olmaz.*

*Cahanı dust tutduqca edər düşmənçilik peyda,*
*Bu düşmən kamdən, ey nəfs, hasil hiç kam olmaz.*

*Cahan məmurəsində künci-üzlət ixtiyar eylə,*
*Qənaət əhlinə, ey dil, belə rahət məqam olmaz.*

*Ayaqdan düşməmiş səy eylə əldən vermə mey camin,*
*Cavanlıq şuri qalmaz başda, bu nəşə müdam olmaz.*

*Nə təşviş eyləyirsən cam əlində ruzi-məhşərdən,*
*Əgər piri-muğan vermişsə, qorxma, heç həram olmaz.*

*Təmənna eyləsəm, saqi, ləbindən busə, məzurəm,*
*Bu rövşən əmrdir kim, məst olan kəsdə nizam olmaz.*

*Bürünmə xirqeyi-salusə, Bixud, tənədən qorxub,*
*Bu, meydani-məhəbbətdir, bu yerdə nəngü nam olmaz.*

XIX əsr Şirvan ədəbi mühiti klassik Azərbaycan poeziyasının, qədim və zəngin ədəbiyyatımızın, eləcə də Şərq şeiriyyatının bütün xüsusiyyətlərini özündə cəmləşdirir və inkişaf edirdi.

**ƏDƏBİYYAT:**


1. Azərbaycan ədəbiyyatı tarixləri. (2007, 2009). Bakı: Elm və təhsil.
2. Hüseynov, R. (2012) . Şirvan şairləri. Bakı.: Elm və Təhsil. 107 s.
3. Qəniyev, S. (2010). "Beytüs-səfa" ədəbi məclisi. Bakı: Nurlan. 189 səh.
4. Nəbiyev, B. (2012) Şamaxı torpağının yetirdiyi böyük Azərbaycan şairləri. Bakı: Ozan. 287 s.
5. Paşayev, M. C. (2004). Azərbaycanda ədəbi məktəblər. Bakı: Ziya-Nurlan . 391 s.
6. Paşayev M.C. (2018) .Füzuli sənətkarlığı. Bakı: Çaşıoğlu. 348 s.